# Respublika Günü qeyd olunub

28 May - Respublika Günü Qəbələdə böyük təntənə ilə qeyd olunub.

Şəhər stadionunda keçirilən tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov 101 il əvvəl, 1918-ci il mayın 28-də Şərqdə ilk parlamentli respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə xalqımızın uzun illər arzusunda olduğu milli müstəqillik və azadlıq ideyalarının reallaşdığını diqqətə çatdırıb. Vurğulanıb ki, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib. Xalq Cümhuriyyəti xüsusilə dövlət quruculuğu sahəsində verdiyi mühüm qərarları ilə yadda qalıb. Cümhuriyyətin fəaliyyət dövrü milli dövlətçilik tariximizin ən yaddaqalan mərhələlərindən biridir.

Bildirilib ki, Xalq Cümhuriyyətinin süqutundan 71 il sonra, 1991-ci ildə xalqımız yenidən öz istiqlaliyyətinə qovuşub. Azərbaycan ikinci dəfə öz müstəqilliyini elan etdikdən sonra xalqımız böyük təzyiqlərə məruz qalıb. Ölkəmizin, dövlətçiliyimizin müqəddəratı təhlükə ilə üzləşdiyi bir vaxtda xalq ayağa qalxaraq öz xilaskarını - ümummilli lider Heydər Əliyevi yenidən hakimiyyətə gətirib. Məhz ulu öndərin böyük zəhməti, siyasi uzaqgörənliyi sayəsində əsrin sonlarında Azərbaycan öz müstəqilliyini qoruyub saxlamağa müvəffəq olub.



İki bayramın qovuşduğu günü böyük çoşğu ilə qarşılayan qəbələlilər daha bir əlamətdar hadisəni qeyd ediblər. Onlar mayın 19-da futbol üzrə Azərbaycan kuboku uğrunda keçirilən final yarışında "Qəbələ"nin Naxçıvan Muxtar Respublikası Stadionunda "Sumqayıt"a 1:0 hesabı ilə qalib gəlməsi və ilk dəfə Azərbaycan kubokunun sahibi olaraq Avropa Liqasına vəsiqə qazanması ilə əlaqədar kubokun komandamıza təqdimatı mərasiminin şahidi oldular.



Geniş konsert proqramı ilə davam edən təntənəli bayram tədbiri atəşfəşanlıqla başa çatıb.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin Konfransı keçirilmişdir

***May ayının 27-də Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin V Konfransı keçirilmişdir.***

***Konfrans iştirakçıları öncə Qəbələ şəhərinin mərkəzindəki ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gəlmiş dahi rəhbərin burada ucaldılan abidəsi önünə tər gül-çiçək dəstələri düzmüş, ehtiramlarını bildirmişlər.***



Konfransı Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açmışdır. Azərbaycan Respublikasının Dövlət Himni səslənmişdir.

YAP rayon təşkilatı gənclər birliyinin sədri Namiq Ağayev konfransın gündəliyini və reqlamentini elan etdikdən sonra ötən konfransdan keçən dövr ərzində gənclər birliyinin gördüyü işlərə dair hesabat məruzəsi ilə çıxış etmişdir.




Hesabat məruzəsində bildirilmişdir ki, ölkəmizin bütün gəncləri kimi YAP Qəbələ Rayon Təşkilatının üzvü olan gənclər də həyatın bütün sahələrində fəallıq göstərirlər. YAP Qəbələ Rayon Təşkilatı üzvlərinin 37 faizi gənclərdir. Onlar rayonun idarə və müəssisələrində, təhsil, mədəniyyət, səhiyyə ocaqlarında, sənayedə, kənd təsərrüfatında uğurla çalışırlar. Yaxşı haldır ki, son illər rayon gəncləri daha çox məsul vəzifələrə irəli çəkilir və özlərini doğruldurlar.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin üzvləri ictimai-siyasi həyatda da fəal iştirak edir, ulu öndər Heydər Əliyev ideyalarına sadiqlik nümayiş etdirirlər. Natiq hesabat məruzəsində ötən konfransdan bəri gənclər birliyi tərəfindən həyata keçirilən çoxsaylı ictimai-siyasi, mədəni-kütləvi xarakterli tədbirləri bir daha konfrans iştirakçılarının nəzərinə çatdırmışdır.

Məruzə YAP rayon təşkilatı gənclər birliyi üzvlərinin qarşısında duran vəzifələrin sadalanması ilə başa çamışdır.

Gənclər birliyi üzvlərindən Səbinə Sabirli, Ümid Məsimov, Aytac Həmidova, Anar Şirinov konfransda çıxış etmişlər.

Konfransda təşkilati məsələlərə baxılmışdır.

Anar Tofiq oğlu Şirinov YAP Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin sədri seçilmişdir.

Konfrans 15 nəfərdən ibarət şura üzvünü və 7 nəfərdən ibarət idarə heyətini seçmişdir.

Anar Şirinov, Aytac Həmidli, Ümid Məsimov Yeni Azərbaycan Partiyası Respublika Gənclər Birliyinin konfransına nümayəndə seçilmişər. Bununla da konfrans öz işini başa çatdırmışdır.

**«Qəbələ»**
**Səhrab Umuyev (foto).**

# Əmək yarmarkası

***Mayın 21-də rayon məşğulluq mərkəzi icra hakimiyyətinin dəstəyi ilə əmək yarmarkası təşkil edib.***

***Dövlət peşə təhsil mərkəzində keçirilən yarmarkanı giriş sözü ilə məşğulluq mərkəzinin direktoru Çingiz Əliyev açıb.***



Tədbirdə iştirak edən RİH başçısının müavini Arif Allahverdiyev əmək yarmarkalarının əhəmiyyətindən, ölkə başçısı İlham Əliyevin əhalinin məşğulluğunun və özünüməşğulluğunun təmin edilməsi istiqamətində qarşıya qoyduğu vəzifələrdən danışıb.

Sonra yarmarkanın işinə start verilib və işaxtaranlara göndəriş vərəqələrinin verilməsinə başlanılıb. Yarmarkada dövlət və qeyri-dövlət sektoruna aid olmaqla 8 müəssisə və təşkilat üzrə 214 boş (vakant) iş yeri iş axtaran vətəndaşlara təklif olunub.

Təqdim olunan vakant iş yerlərində əmək haqqının ən aşağı həddi 180 manat, ən yüksək həddi isə 653 manat təşkil edib. Yarmarkada 71 nəfər işə göndəriş alıb.

Tədbir zamanı əmək bazarının tələblərinə uyğun yeni peşələrə yiyələnmək istəyənlər hazırlıq kurslarına cəlb olunmaq üçün qeydiyyata alınıb.

Yarmarkada ümumilikdə 345 nəfərdən çox işəgötürən təşkilatların nümayəndələri və işaxtaranlar iştirak ediblər.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Tibbi müayinələrdə 65 mindən çox sakin iştirak edib

Prezident İlham Əliyevin tövsiyəsinə uyğun olaraq əhalinin kütləvi tibbi müayinədən keçirilməsi aksiyası rayonda mütəşəkkil qaydada başa çatıb. Fevralın 12-də başlanan aksiyadan 65 mindən çox vətəndaş yararlanıb. Tibbi müayinələrə rayonun 64 yaşayış məntəqəsinin əhalisi, o cümlədən 92 idarə, müəssisə və təşkilatda çalışanlar cəlb olunublar.



Tibbi müayinələr rayon mərkəzi xəstəxanası, Qəbələ Müalicə Diaqnostika Mərkəzi, eləcə də qəsəbə və kənd tibb məntəqələrində əvvəlcədən müəyyənləşdirilmiş cədvəl əsasında keçirilib. Müayinələrə təcrübəli həkim və orta tibb işçiləri cəlb olunub.

Tibbi müayinədən keçənlərin 3049 nəfərinə ambulator müalicə təyin edilib, 325 nəfər stasionar müalicəyə cəlb olunub, 105 nəfərin üzərində cərrahiyyə əməliyyatı aparılıb. Daha ciddi müayinə və müalicəyə ehtiyacı olan 165 nəfər ixtisaslaşdırılmış tibb müəssisələrinə göndərilib.

**Rais RƏŞİDOV,**
**"Qəbələ"**